

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 109 (23.521)

*10 iyul 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Bakının Nizami rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/10 kilovoltluq "8-ci km" yarımstansiyasının açılışında iştirak edib.

"Azərenerji" ASC-nin sədri Baba Rzayev yarımstansiyada görülən işlər barədə dövlətimizin başçısına məlumat verərək bildirib ki, "8-ci km" yarımstansiyası 52 il əvvəl tikilmiş və istismar müddətini çoxdan başa vurmuşdu. Nəticədə, burada tez-tez qısaqapanmalar olurdu və enerji sistemi qəza təhlükəsi ilə üzləşirdi. Yenidənqurma nəticəsində bu problemlərin hamısı aradan qaldırılıb. Burada görülən yenidənqurma işləri çərçivəsində yarımstansiyanın açıq və qapalı paylayıcı qurğuları, transformatorları, inzibati-idarəetmə binası və digər zəruri infrastrukturu müasir səviyyədə yenilənib. Yarımstansiyanın yenidən qurulmasını zəruri edən səbəblərdən biri də Nizami rayonunda 35 kV-luq şəbəkənin genişlənməsi və gərginlik sinfinin dəyişdirilməsi idi. Görülən işlər nəticəsində yarımstansiyanın gücü 55 MVA-dək artırılıb.

Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

Yenidən qurulan bu yarımstansiya Xətai və Nizami rayonlarında yüz minlərlə əhalinin, sənaye, məişət-kommunal, təhsil, tibb və iaşə müəssisələrinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsində mühüm rol oynayacaq.



## Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılsın və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Nəsirova İnci Emin qızı - Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi, təhsil sahəsi üzrə

Seyidov Vüsal Mirşahin oğlu - Babək rayon Vayxır kənd tam orta məktəbinin şagirdi, idman sahəsi üzrə

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 iyul 2020-ci il*

## Torpaqlarda su təminatının yaxşılaşdırılması davam etdirilir

Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilir. Əkin sahələrinin suvarma suyu ilə təmin olunması, əhalinin içməli su təchizatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması məqsədilə 2020-ci ilin iyun ayı ərzində təmir-bərpa və tikinti işləri davam etdirilmişdir. Bu dövrdə su istifadəçilərinə 53,6 milyon kubmetr su verilmiş, bunun müqabilində 45 min 168 hektar torpaq sahəsi suvarılmışdır. 11 kilometr beton və torpaq kanal, 17,7 kilometr ara arxlar, 3 kilometr kollektor lildən təmizlənmiş, 6 kilometr suvarma, 2,6 kilometr təzyiqli boru xətti təmir-bərpa edilmiş, 60 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. 1,2 kilometr selə qarşı istiqamətləndirici bənd salınmışdır. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün Kəngərli rayonunun Böyükdüz kəndində 800 hektar, Şahbuz rayonunun Türkeş kəndində 270 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 7,6 kilometr suvarma xətti çəkilmiş, 32 su-paylayıcı hovuz və 50 suvarma hidrantı quraşdırılmışdır. Qeyd olunan dövrdə 91 subartezian quyusunda və 5 kəhrizdə təmir-bərpa işləri aparılmış, 1 kəhrizdə işlər başa çatmışdır.

Muxtar respublikanın yaşayış məntəqələrində dayanıqlı və keyfiyyətli içməli su təminatı yaradılır, kanalizasiya sistemləri qurulur. Bu istiqamətdə görülən işlər ötən ay da davam etdirilmişdir. Belə ki, "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində 10 kilometr su və 9 kilometr kanalizasiya, Sədərək rayonunda 6,7 kilometr su, 10 kilometr kanalizasiya, Kəngərli rayonunda isə 10,8 kilometr su xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

*Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən iyun ayında daxil olan müraciətlərə əsasən cəmi 12 mənzil (ev) "Naxçıvanqaz" Servis MMC tərəfindən qazlaşdırılmışdır.*

## Ötən ay muxtar respublikada 12 mənzil qazlaşdırılıb

Hesabat dövründə qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət göstərilərək Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursuna mart ayında pandemiya ilə əlaqədar ara verilmiş və iyun ayında kursun təşkili bərpa olunmuşdur.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqamətində işlər davam etdirilmiş, 1 iyul 2020-ci il tarixə cəmi 20 min 237, o cümlədən cari ilin iyun ayında 7 qaz sayğacı quraşdırılmışdır. Bu işlər davam etdirilir. Ötən ay Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismar idarələrinin qəza-dispetçer sahələrinin 104 nömrəli 24 saat aktiv olan qaynar xəttinə qazsızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə 833 çağırış daxil olmuşdur. İyun ayında muxtar respublika qaz şəbəkəsində 587 qazsızması aşkarlanaraq aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin iyun ayında yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsində müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur. Muxtar respublikanın yaşayış məntəqələrində yerli icra hakimiyyəti, hüquq-mühafizə orqanlarının əməkdaşları və şəhər, rayon qaz istismar idarələrinin işçiləri ilə birgə reydlər keçirilmiş, aşkarlanmış nöqsanlara və sayğaca müdaxiləyə görə 1 abonentə cərimə tətbiq olunmuşdur. Eyni zamanda qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Yeni ailə təsərrüfatı məhsullarının istehsalına başlanılıb

*Artıq bir neçə ildir ki, muxtar respublikamızda ailə təsərrüfatlarının inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhali məşğulluğunun artırılması, ailə biznesinin qurulması diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən tədbirlər çərçivəsində "Ailə təsərrüfatı məhsulları" festivalları keçirilir, istehsal olunan məhsulların satışı üçün əlverişli şərait yaradılır.*





2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər planlarının təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün daha geniş imkanlar açıb. Qarşıya qoyulan vəzifələrin icrasına uyğun olaraq Ailə Təsərrüfatları İctimai Birliyi yaradılıb, diyarımızda bu mütərəqqi təsərrüfat forması ilə məşğul olan şəxslərə ətraflı informasiyalar verilib, maddi dəstək göstərilib, onların potensialından cəmiyyətin iqtisadi həyatında daha səmərəli istifadə olunması təşkil edilib. Dövlət dəstəyi nəticəsində ailə təsərrüfatları məhsullarının qablaşdırma və dizaynlarının tərtib edilməsi, onların taralarla təchizatı məhsulun bazara və istehlakçılara marketinq qaydalarına uyğun olaraq çatdırılmasına imkan verib.

2020-ci il muxtar respublikada "İxrac ili" elan edilib, bu məqsədlə Ali Məclis Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı" təsdiq olunub. Tədbirlər planında nəzərdə tutulan işlərin icrası ilə əlaqədar davamlı olaraq ailə təsərrüfatları ilə aparılan müəyyən təşviq işlərində istehlak bazarının tələbləri öyrənilir, ixracyönümlü məhsulların dəstəklənməsi istiqamətində işlər həyata keçirilir.

Müşahidələr göstərir ki, müxtəlif bitki toxumlarından alınan yağlara bazarda tələbat böyükdür. Dünən bu istiqamətdə Şahbuz rayonunun Badamlı qəsəbəsində bitki toxumlarından hazırlanan yağların və doşabların istehsalını həyata keçirən yeni ailə təsərrüfatı fəaliyyətə başlayıb. Ailə təsərrüfatçısı Vüsal Salahov bildirdi ki, ilkin olaraq burada bir sıra xəstəliklərin müalicəsində effektiv nəticələr verən çörəkotu və Hindistan cəvizi yağları, keçibuynuzu doşabı istehsal ediləcək. Gələcəkdə bazarın tələbinə uyğun olaraq məhsul çeşidinin artırılması nəzərdə tutulub. Bu məhsulların muxtar respublikada satışı ilə yanaşı, ölkəmizin digər bölgələrinə, həmçinin xarici ölkələrə ixracı da planlaşdırılır.

Qeyd edək ki, yeni bitki toxumlarından yağların və doşabların istehsalı sahəsində quraşdırılan avadanlıqlar Almaniya istehsalıdır, xammal isə Türkiyə Respublikasından gətirilir. Gələcəkdə xammalın da muxtar respublikamızda istehsalı nəzərdə tutulub.

**Nail ƏSGƏROV**



## İqtisadiyyat





*Ailə təsərrüfatlarımız*

# Ömrünün mənasını zəhmətdə tapanlar



***Muxtar respublikamızda yaxın keçmişdə yaşanan çətin və məşəqqətli günlər artıq arxada qalıb. İnsanlar daha çörək növbəsinə dayanmır, qışda soyuqda qalmır, çörəkpulu qazanmaq üçün xaricə getmir. Çünki bu qədim diyarda hər gün bir yeniliyə imza atılır. İnsanların firavan həyatına yönəlmiş Dövlət proqramları, infrastruktur layihələr həyata keçirilir. Bunun nəticəsində muxtar respublikamızın hər bir bölgəsində insanların səmərəli məşğulluğu təmin olunur, onların rifah halını yüksəltmək üçün işgüzar mühit yaradılır, torpaq zəhmət adamlarının əsas iş yerinə çevrilir. Bütün bunları Culfa rayonunun yaşayış məntəqələrində də görmək olar. Boyəhməd kəndi də həmin yaşayış məntəqələrindən biridir.***

Rayon mərkəzindən 60 kilometrdən artıq məsafədə yerləşən bu dağ kəndinin sakinləri də dağ kimi vüqarlı, əyilməz və zəhmətkeşdirlər. Ulu Yaradan bu ucqar dağ kəndindən səxavətini əsirgəməyib. Ona nadir rəssam fırçası ilə təbiətin bütün möcüzəsini bəxş edib. Bura gələn hər bir qonaq bu yurdun gözəlliyinə, sakinlərin qonaqpərvərliyinə, səmimiyyətinə və mehribanlığına valeh olmaya bilmir. Sıralanmış boz təpələrin, səngərtək düzülmüş sərt qayaların gözəlliyi insanı məftun edir. Bu yurdun torpaqları bərəkət rəmzidir. İlin bu fəslində Boyəhməd kəndi bağın-bağçanın içində görünməz olub. Həyətlərdəki ərik, alma, armud, gavalı, heyva, qoz ağacları yurd yerinin gözəlliyini daha da artırır. Boyəhməddə heyvandarlıq, arıçılıq və meyvəçiliyin inkişafı üçün gözəl şərait var. Kənd sakini, uzun illər pedaqoji fəaliyyət göstərməklə hörmət və ehtiram qazanan Ədalət Həsənov, nəinki Boyəhməd kəndində, hətta muxtar respublikamızda tanınmış bağbanlardan biridir. Bağçılığa uşaqlıqdan maraq göstərdiyini söyləyən Ədalət müəllimlə söhbətimiz zamanı bildirdi ki, Boyəhmədin təmiz havası, saf suyu bu yerlərdə meyvə ağaclarının daha yaxşı inkişafına şərait yaradır. Kəndimizdə meyvələr içərisində alma ağacları üstünlük təşkil edir. Həyətyanı sahəmdə saldığım meyvə bağında ağ və qırmızı meyvəli alma ağacları daha məhsuldardır. Bu meyvələr bazarda yüksək alıcılıq qabiliyyətinə malikdir. Onlardan hazırlanmış müxtəlif şirələrdən, kompotlardan süfrələrimizdə geniş şəkildə istifadə olunur. Yaşımın ahıl çağı olmasına baxmayaraq, ağaclara qulluq etməkdən zövq alıram. Təsərrüfat adamlarına dövlətimizin hərtərəfli qayğısı bizi torpağa daha möhkəm və qırılmaz tellərlə bağlayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi aqrar sektorun bu vacib və iqtisadi cəhətdən səmərəli sahələrinin inkişaf etdirilməsində yeni mərhələnin başlanmasına şərait yaradıb. Artıq torpaq hər bir yurd sakininin çörək-ağacına çevrilib. Zəhmətsevərliyin nəticəsidir ki, burada məskunlaşan insanların güzəranı gündən-günə yaxşılaşır...



Bu gün ən ucqar kəndlərimiz belə, son illərdə xeyli gözəlləşib, insanların rahatlığı üçün bütün işlər görülüb. Kənd adamına bir o qalır ki, qolunu çırmayıb təsərrüfatla məşğul olsun, muxtar respublikamızda məhsul bolluğu yaradılmasına öz töhfəsini versin.



Boyəhməd kəndində yaradılan şəraitdən bəhrələnərək zəhmətə qatlaşan təsərrüfatçılardan biri də arıçı Müseyib Quliyevdir. Bu zəhmət adamı ilə də görüşüb söhbət edirik:

– Boyəhməddə arıçılığın inkişafı üçün geniş imkanlar var. Bu sahə qədim zamanlardan kəndin təsərrüfat adamlarının həyat və məişətində mühüm yer tutub. Dövlətimiz tərəfindən göstərilən qayğı isə bizim hər birimizin arıçılığa marağını artırıb. Uzun müddət arı saxladığımıza, bu sahə ilə yaxından maraqlandığımıza görə arının "dilini" yaxşı bilirik. Məhsuldarlığı artırmaq üçün arıları tez-tez yeni, kifayət qədər gül-çiçəkli sahələrə köçürürük. Bu da, təbii ki, zəhmətimizin hədər getməməsi ilə nəticələnir. Bal da çörək kimidir. Zəhmət bahasına başa gəlir. El arasında belə bir məsəl var: "Bir dolu sağlam pətək, yüz yarımçıq pətəkdən yaxşıdır". Bir də, şükür ki, istər arıçılıq, istərsə də meyvəçilik olsun, bu sahələrin inkişaf etdirilməsi üçün kəndimizin zəngin təbiəti var.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi Müseyib Quliyevin timsalında arıçılıqla məşğul olan bütün təsərrüfat adamlarını daha yaxşı işləməyə ruhlandırıb. Boyəhməd kəndinin ailə təsərrüfatçıları gün-güzəranlarının yaxşılaşmasını dövlətimizin onlar üçün yaratdığı işgüzar mühitdə görürlər.

**Alim AĞAYEV**

# Əhalinin yüksəkkeyfiyyətli yerli heyvandarlıq məhsulları ilə təminatı diqqət mərkəzindədir

*Son illər muxtar respublikamızda baytarlıq sahəsində həyata keçirilən kompleks tədbirlər kənd təsərrüfatının dinamik inkişafına, bol məhsul istehsalına, bir sözlə, ərzaq təhlükəsizliyinin təmin olunmasına əlverişli şərait yaradıb. Baytarlıq idarələri üçün yeni inzibati binaların inşa olunması, onların maddi-texniki bazalarının yenilənməsi, laborator analizlərin və yoxlamaların aparılması üçün müasir avadanlıqların istifadəyə verilməsi, ən ucqar dağ kəndlərində belə, baytarlıq məntəqələrinin fəaliyyət göstərməsinin nəticəsidir ki, təsərrüfatlarda heç bir yoluxucu xəstəliyə rast gəlinmir və əhali keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunur.*




Muxtar respublikamızın digər rayonlarında olduğu kimi, Babək rayonunda da bu sahədə mühüm işlər həyata keçirilir, süni mayalanma tədbirləri, arıların qeydiyyata alınması və dərman preparatlarının vaxtaşırı olaraq sahibkarlara paylanılması, xırda və iribuynuzlu heyvanların, eləcə də quşların peyvəndlənməsi diqqət mərkəzində saxlanılır.

Baytarlıqda son illər aktual olan məsələlərdən biri də süni mayalanma ilə bağlıdır. Çünki inkişaf etmiş ölkələrdə bu üsulla iribuynuzlu və xırdabuynuzlu heyvanların, hətta arıların belə, cins tərkibini dəyişmək mümkündür. Burada əsas məqsəd məhsuldarlığı artırmaqdır. Mövzu ilə bağlı suallarımızı cavablandırmaq və oxucularımızı da məlumatlandırmaq üçün Babək Rayon Baytarlıq İdarəsinin rəisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi Cəlal Həsənova müraciət etdik.

Müsahibim bildirdi ki, indi ölkəmizdə və muxtar respublikamızda süni mayalanmanın tətbiq edilməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb. Süni mayalanma məntəqələrinin fəaliyyətinin təmin olunması, bu yolla doğulan hər baş buzova görə əlavə subsidiyanın verilməsi fermerlərin heyvandarlığa marağını daha da artırıb. Babək rayonu muxtar respublikanın böyük yaşayış məntəqələrindəndir və burada kənd təsərrüfatının əkinçilik, heyvandarlıq, arıçılıq, quşçuluq sahələri inkişaf etdirilir. Hazırda rayonda 15 mindən çox iribuynuzlu, 143 minə yaxın xırdabuynuzlu heyvan, 330 minə yaxın quş, 15 minə yaxın arı ailəsi saxlanılır. Heyvanlar arasında baytarlıq tədbirlərinin aparılması ilə yanaşı, süni mayalanmanın da uğurla tətbiq edilməsi qarşımızda duran əsas vəzifələrdən biridir. Bu sahədə rayonda da mühüm uğurlar əldə edilib. Belə ki, təsərrüfatlarda saxlanan 15 mindən artıq iribuynuzlu heyvanın 9 faizdən çoxu bir il ərzində süni mayalanma yolu ilə alınmış cins buzovlardır. Bu da göstərir ki, bir neçə il ərzində rayonda mal-qaranın cins tərkibi tamamilə yaxşılaşacaq.





Cəlal Həsənov onu da diqqətimizə çatdırır ki, süni mayalanmanın tətbiqinə muxtar respublikamızda ilk dəfə 2002-ci ildə elə Babək rayonundan başlanılıb və artıq bəhrələrini verməkdədir. Məsələn, təsərrüfatlarımızda bəslədiyimiz yerli cinsdən olan qaramal bir gündə 3-6 litr arasında süd verirsə, süni mayalanma yolu ilə doğulan düyədən 15-17, hətta bəzən 20 litr süd sağmaq mümkündür. Bu yolla doğulan buzovlar ətlik istiqamətdə də olduqca faydalıdır. Əvvəllər fermer il ərzində bəslədiyi dananı kəsdiyi zaman 100-120 kiloqram ət əldə edirdisə, süni mayalanmadan doğulan 1 yaşındakı buzovdan 300-350 kiloqram məhsul əldə edir. Məlumat üçün deyim ki, birinci dəfə süni mayalanmadan doğulan buzovun 25 faiz cins tərkibi dəyişilir. Gələcəkdə həmin buzova süni mayalanma tətbiq edilərsə və bala verərsə, onun da cins tərkibi 50 faiz dəyişilmiş hesab olunur.

Müsahibim deyir ki, süni mayalanmanın aparılması üçün lazım olan bütün avadanlıqlar dövlətimiz tərəfindən idarəyə pulsuz olaraq verilib. Biz də yerlərdəki mütəxəssislərimizi bu avadanlıqlarla təmin etmişik. Süni mayalanmanın toxumları isə qonşu ölkələrdən gətirilir. Muxtar respublikamızda südlük istiqamətdə "Holşteyn-friz", eləcə də südlük və ətlik istiqamətdə daha məhsuldar olan "Simmental" cinslərinin toxumlarından istifadə olunur. Ölkə başçısının müvafiq sərəncamına uyğun olaraq süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması yüksək məhsuldarlığı olan heyvanların baş sayının, həm də heyvandarlıq məhsulları istehsalının artırılmasına və keyfiyyətinin yüksəldilməsinə şərait yaradıb. Dövlətin istəyi budur ki, sahibkar qazansın, bol məhsul istehsal olunsun. Son illərdə bu sahənin inkişafında atılan mühüm addımlardan biri ölkə başçısı cənab İlham Əliyevin 2018-ci il 22 fevral tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamdır. Dövlət sənədinin icrası məqsədilə muxtar respublikamızda Süni Mayalanma Mərkəzinin yaradılmasına başlanılıb. Tikintisinə 3 milyon manat vəsait ayrılan mərkəz Azərbaycanda fəaliyyət göstərən ikinci Süni Mayalanma Mərkəzi olacaq. Bu, ölkə Prezidentinin heyvandarlıqla məşğul olan sahibkarlara göstərdiyi diqqətin növbəti təzahürüdür. Əvvəllər süni mayalanma toxumları başqa ölkələrdən gətirilirdisə, artıq buna ehtiyac olmayacaq. Onu da qeyd edim ki, mərkəzdə südlük və ətlik-südlük istiqamətində "Holşteyn-friz", "Simmental", "Qafqaz camışı", "Balbas", "Mazex", "Romanov", "Hələb", "Saanen" və yerli cins iri və xırdabuynuzlu törədicilər saxlanılır. Süni mayalandırmada südlük istiqamətdə "Holşteyn-friz", südlük-ətlik istiqamətdə "Şvis", ətlik istiqamətdə "Aberdin Anqus", "Limuzin", "Şarolle", ətlik-südlük istiqamətdə isə "Simmental" cinsli törədici toxumlarından istifadə olunub.

Cəlal Həsənov deyir ki, əvvəllər süni mayalanma materiallarının qonşu ölkələrdən gətirilməsində çətinliklər yaranırdı. Əldə olunan həmin toxumların saxlanılma şəraitində də müəyyən problemlər mövcud idi. Artıq yeni mərkəzdə toxum istehsalı da aparılacağı üçün həmin problemlər ortadan qaldırılacaq. Burada təkcə iribuynuzlu deyil, xırdabuynuzlu heyvanların, quşların, hətta arıların da cins tərkibləri yaxşılaşdırılacaq. Sevindirici haldır ki, bundan sonra azot istehsalı da daxil olmaqla, bütün materiallar yerli istehsal hesabına həyata keçiriləcək.

Bütün bunlar deməyə əsas verir ki, muxtar respublikada heyvandarlığın inkişafı məqsədilə qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası və görülən digər mühüm işlər daxili bazarın keyfiyyətli heyvandarlıq məhsulları ilə təmin olunmasına, eyni zamanda həmin məhsulların ixracına geniş imkanlar açır.

**Pərviz HACILI**

## Naxçıvan dünən

# Naxçıvanın duzu...

...Bundan əvvəl yolu Bakıya düşənlər öz tanış-bilişlərinə Naxçıvan duzundan da bir pay tutardılar. Mağazalarımızda isə qiyməti 7 qəpiyə olan xörək duzu ayaq tutub yeriyərdi. Bu gün isə mağazalarımızda duz tapılmır, istəyirsən bütün dükanları ələk-vələk elə. Yayın isti günündə bir pomidora səpməyə belə, duz tapılmaz. Elə həmin andaca ağlına dəmiryolunun işləməməsi, blokada gəlir. Deyirsən, bəlkə, başqa ərzaq məhsulları kimi duzu da gətirmək çətindir. Yox, tez də fikrindən daşınırsan. Naxçıvan duzu muxtar respublika mərkəzinin cəmi 8 kilometrliyindədir. İraq olsun, bəlkə, o şöhrətli duzun ehtiyatı tükənib? Yox, bu da deyil. Bircə həqiqət budur ki, tükənməz duz ehtiyatına malik olan Naxçıvanın əhalisi duz sarıdan korluq çəkir. Nəzərə alsaq ki, duz ən çox işlənən ərzaq sayılır, onda qarşıya çıxan çətinliyi tam aydınlığı ilə başa düşərik. Bu gün hansı mağazaya baş vurub “duz varmı?” deyə soruşsan “tapılmaz” cavabını eşidərsən.

Bilirəm, bu yazını oxuyanlar bir andaca gileylənəcək: rəhmətliyin qızı, tək duz dərdi olsaydı, nə bəxtəvər idik. Elə piyada mədənə gedib sal duz gətirib evdə özümüz döyərdik...

***“Şərq qapısı” qəzeti***
***19 avqust 1992-ci il***



## və bu gün

# Haşiyəli dağların bəyaz donlu sərvəti...

***Bu qiymətli sərvətimiz keçmişdə...***

Muxtariyyətin güzgüsünə çevrilən “Şərq qapısı” qəzetinin 1992-ci il 19 avqust tarixli nömrəsindəki “Naxçıvanın duzu...” sərlövhəli məqalədə jurnalist həmkarım muxtar respublikanın təbii sərvəti olan, bir zamanlar el-el, oba-oba gəzən duzun yoxa çıxmasından, istehsal müəssisəsinin fəaliyyətsizliyindən ürəkyanğısı ilə söhbət açır. Keçmişdən bu günə müxtəlif tarixi dövrləri, xalqımızın həyat və məişətini xarakterizə etdikdə bu təbii sərvətin milli kimliyimizlə, varlığımızla necə sıx bağlı olduğunu hiss etmək, duymaq çətin deyil. Bəli, ötən əsrin 90-cı illərinin acı həqiqətləri dədə-babalarımızdan qalma “duz-çörək haqqı” deyib varlığına and içdiyimiz bu nemətə – bir tikə çörək kimi bir çimdik duza da möhtac qoydu naxçıvanlıları. Əsrlərboyu şöhrəti aləmi gəzən, neçə-neçə ticarət karvanlarının yolunu buradan salmağa sövq edən duza bu qədər yaxın olub da öz varına-sərvətinə həsrət qalmaq, həqiqətən, ürək sızladan mənzərədir...

Xalqımız tarixboyu duzu müqəddəslik rəmzi kimi yüksək dəyərləndirib, and yeri kimi yanaşıblar. Dostlar arasına nifaq salmaq istəyənlərə, söz-söhbət yaratmağa çalışanlara “duz-çörək kəsmişik, bizə yaraşmaz”, – deyə cavab verilərmiş. Naxçıvan folkloruna aid dastanlarımızda yer alan “Duz kəsən düz olar”, “Duz kəsən namərd olmaz”, “Şeytana uyma. Duza dönük çıxan murada çatmaz”, “Qoy onlar tez-tez duz kəssinlər” kimi deyimlər də qədim Oğuz torpağında yaşayanların bu nemətə bəslədiyi dərin məhəbbətindən, sonsuz inamından xəbər verir. Duzun yandırılaraq bədnəzərləri, şər qüvvələri və mənfi auranı dəf etməsi, eləcə də bu nemətin yerə tökülməsinin pis əlamət olması ilə bağlı inanclar bu gün də el arasında yaşadılır.

Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan “Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi”ndə verilən “Naxçıvan mahalı və Naxçıvan şəhəri” adlı irihəcmli məqaləsində Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan biri olması, şəhər əhalisinə duz çıxarmağı öyrətməsi qeyd edilir. Tədqiqatlar göstərir ki, burada Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulub və bu amil Naxçıvanda 5 minillik şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərib. Duzdağda Naxçıvan xanlığı dövründə duz çıxarılması iltizam hüququ əsasında daha mütəşəkkil xarakter alıb. Belə ki, tədqiqatçı İ.Şopenin verdiyi məlumata görə, buradakı mədənlər XVIII əsrin ortalarında Naxçıvan xanları tərəfindən hər il 30, 40, 50, 100, 150 və 300 tümənə iltizama verilirdi. İltizamçılar bunun müqabilində həm də Naxçıvan xanlarını duzla pulsuz təmin etməyi öhdələrinə götürürdülər. Sonrakı dövrdə də duz çıxarılma ənənəsi yaxşı gəlirgətirən sahə kimi inkişaf edib.

Duzdağ yatağından sənaye üsulu ilə duzun çıxarılmasına isə ilk dəfə 1927-ci ildə başlanılıb... Sovet dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilib. Təəssüf ki, 1988-ci ildən sonra sənaye müəssisəsinin fəaliyyəti tamamilə dayanıb, nəticədə, müəssisənin əmlakı dağıdılıb, təcrübəli mədənçilər işsiz qalıblar. Lakin ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra bütün sahələrdə baş verən intibah prosesləri Naxçıvanın brendi hesab olunan duzun da əvvəlki şöhrətini özünə qaytarmasına imkan verib. Belə ki, ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından, eləcə də duz mədənlərindən səmərəli istifadə olunmağa başlanıb.

Duzdağ mədənlərinin arxeoloji cəhətdən tədqiqinə isə ötən əsrin 70-ci illərində yenidən başlanılıb. 1967-ci ildə uçqun zamanı və 1976-cı ildə Duzdağda qazma işləri aparılarkən qədim şaxta aşkar edilib. 2006-2011-ci illərdə AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə fransız arxeoloji ekspedisiyası tərəfindən aparılan tədqiqat işləri nəticəsində buradan daş alətlərə yanaşı, Eneolit, Erkən Tunc, Dəmir dövrlərinə və orta əsrlərə aid keramika məmulatları, daş çəkiclər tapılıb. Həmin tapıntılar Erkən Tunc dövründə duz çıxarılması işinin daha geniş şəkil aldığını göstərir.





Aparılan araşdırmalar belə deməyə əsas verir ki, əsrlərboyu insanların öz yaşayışlarını təmin etmək üçün Duzdağdakı mədənlərdən primitiv üsulla əldə etdiyi bu əvəzolunmaz sərvət məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılıb. Bu mənada, duz yaxşı gəlir mənbəyi hesab olunmaqla, həm də diyarımızın şan-şöhrətinin bütün dünyaya yayılmasına xidmət edib.

***Dadlı-tamlı Naxçıvan duzu bu gün***

Günün istənilən vaxtında mağazalardan çox cüzi qiymətə nəfis tərtibatlı paketlərdə aldığımız narın duzun, əslində, necə böyük zəhmət və alın təri hesabına şaxtadan çıxarılıb istehsal olunaraq satışa çıxarıldığını çoxumuz bilmirik. “Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır”, – deyib ötən günlərdə bu təbii sərvətimizin sorağı ilə şəhərin qızmar istisindən bir qədər uzağa – haşiyəli dağların qoynuna üz tuturam. Turistlərin sevimli məkanı sayılan, möhtəşəm görünüşlü “Duzdağ” otelinin yanından ötür, bir zamanlar quru səhralıq olan, çoxlarının ilan oylağı kimi tanıdığı, indi isə alın təri və zəhmətlə yaşıllaşan əraziləri arxada qoyub Duzdağ Fizioterapiya Mərkəzinin qarşısına çatıram. Burada diqqətimi ilk çəkən ərazidə şəfa ocağı üçün ucaldılan yeni inzibati bina və yolları hamarlayaraq yeni asfalt örtük salan, üzərində günəş şüalarının bərq vurduğu texnikalarla yorulmaq bilmədən çalışan zəhmətkeş inşaatçılar olur. Müəyyən olunmuş ərazidən keçərək “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətinə yetişirəm. Müəssisənin direktoru Anar Əsədullayev məni xoş təbəssümlə qarşılayaraq Naxçıvan duzunun eləmə yayılan səs-sorağından danışır, ölkəmizin digər bölgələrindən gələn rəğbət dolu sözləri ifadə edir. Onu da bildirir ki, ötən müddət ərzində duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılıb, 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilib, müəssisə yenidən qurularaq istifadəyə verilib. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı sahəsi tikilərək istehsala başlanıb. Burada bütün istehsal prosesi avtomatlaşdırılıb, paketləyici avadanlıq quraşdırılıb. 2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 tarixvuran və 1 duzpaketləyən avadanlıq alınıb gətirilib. Beləliklə, əl əməyi yüngülləşdirilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, bu məhsulun sifarişçilərin ünvanlarına vaxtında çatdırılması da təmin edilib. Duz istehsalı üçün yaradılanlar Naxçıvanın duz yataqlarının istismarı dövründə qurulan ilk müasir istehsal sahələri kimi tarixə düşüb.

Öyrənirəm ki, 1 nömrəli şaxtanın istismar müddəti 2017-ci ildə başa çatdığı üçün, həm də artan tələbat nəzərə alınaraq ötən ildən “Gəmiqaya” MMC-nin inşaatçıları tərəfindən yeni şaxtanın tikintisi aparılır. Əlamətdar hadisə ilə əlaqədar ötən il dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ərazidə görülən işlərlə yaxından tanış olub, tapşırıqlarını verərək deyib: ***“Yeni duz şaxtasının açılması muxtar respublikanın həyatında əlamətdar hadisədir. Çünki tarixən Naxçıvan duzuna böyük tələbat olmuş, dünyanın müxtəlif ölkələrinə göndərilmiş, tədavül vasitəsi kimi istifadə edilmişdir. Naxçıvan Xanlığı dövründə Duzdağda açıq üsulla duz çıxarılmışdır. Sənaye üsulu ilə duzun istehsalına XX əsrin əvvəllərində başlanılmışdır. Sovetlər Birliyi dövründə Duzdağda açılmış şaxtaların birinin istismar müddəti başa çatmış, digərində isə Duzdağ Fizioterapiya Mərkəzi yaradılmışdır. Tələbatın artması yeni duz şaxtasının açılmasını zərurətə çevirmişdir”.***

15 milyon ton duz ehtiyatı olan şaxtanın artıq müəyyən olunmuş duz layına qədər çəkiləcək 390 metr uzunluğundakı tuneldə işlər yekunlaşmaq üzrədir.Yeni şaxta əvvəlkilərdən fərqli olaraq tam müasir standartlara uyğun inşa edilir, burada 3 metr eni, 73 metr hündürlüyü olan havalandırma sistemi qurulacaq ki, bu da içəridə yarana biləcək tozun bayıra sorulmasına, həmçinin duzun nəm çəkməməsinə imkan verəcək. Həmçinin tektonik hərəkətlər zamanı hər hansı xoşagəlməz halların qarşısını almaq məqsədilə 10 metr uzunluğunda qəlib quraşdırılacaq. Texniki təhlükəsizlik qaydalarına tam cavab verəcək yeni şaxtaya ağır texnikalar daxil olub istənilən qədər xammal daşıya biləcək ki, bu da həm vaxt itkisinin qarşısını alacaq, həm də mədən işçilərinin əməyini xeyli yüngülləşdirəcək.

Bundan başqa, şaxtadan, təxminən, 3 kilometrlik məsafədə duzun istehsal və satış həcmini artırmaq məqsədilə yeni müəssisə də qurulur. İnşaatçılar obyektin təməlatma işlərini həyata keçiriblər. Müasir avadanlıqlarla təmin ediləcək müəssisədə istehsal prosesi avtomatlaşdırılacaq və illik istehsal gücü 15 min ton olacaq. Layihəyə əsasən 4580 kvadratmetr ərazini əhatə edəcək zavodda daşduz yeri, hazır məhsul anbarı, qırıcı və ayırma bölməsi, 5 mərhələni əhatə edəcək istehsal sahəsi, eləcə də məhsulun yuyulması üçün hovuzlar, paketləmə materialı anbarı, işçilərin rahatlığını təmin edəcək yeməkxana və mətbəx fəaliyyət göstərəcək. Şaxtadan çıxarılan məhsul müəssisənin “Daşduz” adlanan hissəsinə yığılacaq, daha sonra qırıcı və ayırma zonasında müxtəlif ölçülərə bölünərək istehsal sahəsinə ötürüləcək. Yeni müəssisənin özəlliklərindən biri də burada duzun tam nəfis şəkildə yuyulması üçün hovuzların quraşdırılmasıdır ki, bu da hazır məhsulun keyfiyyətinə zəmanət verəcək.Yeni müəssisədə müasir üsullarla istehsal olunacaq Naxçıvan duzunun gələcəkdə ölkəni tam təmin etməklə yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulub.

Anar Əsədullayevin sözlərinə görə, yeni müəssisə istifadəyə verilənədək hələlik texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir, istehsal edilən məhsul “Duzdağ” əmtəə nişanı ilə satışa çıxarılır. 60 nəfərin işlə təmin olunduğu müəssisədə xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal edilən 18 çeşiddə duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Burada keyfiyyətə nəzarət mexanizmini həyata keçirmək üçün laboratoriya da fəaliyyət göstərir. Cari il 1 iyun tarixinə olan məlumata görə, 758,6 ton narın, 1591,1 ton daşduz istehsal edilib, 901 ton narın, 571,7 ton daşduz satılıb.

Müəssisənin ərazisində olduğum müddətdə ömrünü-gününü bu ağır işə həsr edən zəhmətkeş insanlarla da ünsiyyət qururam. Onlardan yaşı 65-i haqlamış Knyaz Tağıyev 1986-cı ildən burada çalışır. Hazırda baş mühəndis vəzifəsini icra edir. Naxçıvanda duz istehsalının əvvəlki dövrü haqqında ürək yanğısı ilə danışır. Deyir ki, heç yadımdan çıxmaz, texnologiyanın olmadığı bir dönəmdə min bir əziyyət bahasına çıxardığımız məhsulumuzu maşınlara yığıb daşıyırdılar “qardaş” ölkələrə. Hələ bir il, daha dəqiq desəm, 1987-ci ildə o zamana görə rekord göstərici kimi 121 ton duz çıxarıb yola salmışdıq. O dövrdə duz çıxarmaq çox primitiv üsullara əsaslandığı üçün işləmədən, necə deyərlər, əldən-ayaqdan düşürdük. İndi şükürlər olsun, dövlətimiz gözəl iş şəraiti yaradıb, çəkdiyimiz əziyyətin qarşılığını artıqlaması ilə alırıq.



Ömrünün 29 ilini ağır, məsuliyyətli peşəyə həsr edən Museyib Babayev deyir ki, mədənçi işinə həm fiziki güc, həm də möhkəm dözüm, iradəli xarakter gərəkdir. Bu amillər olmasa, burada çalışmaq sənə çətin, dözülməz gələr. Şaxtadan çıxarılan duz kollektiv əməyin məhsuludur. Əgər eyni vaxtda 15 nəfər şaxtaya giribsə, demək, orada hamı bir-birinə hər çətinlikdə kömək olmalı, ağır yükün altına çiynini verməlidir. Həmrəylik niyyəti ilə işə yanaşmayan, ancaq özünü düşünən insan əsl şaxtaçı ola bilməz. Bu iş həm mənəvi, həm də maddi cəhətdən burada çalışan hamı kimi mənim də ürəyimcədir. Çünki ailəmin yaxşı dolanışığını, övladlarımın güzəranını məhz qazandığım bu peşə sayəsində təmin edirəm. Yaxın gələcəkdə işimiz də xeyli asanlaşacaq, yeni şaxtanın istifadəyə verilməsini biz mədən işçiləri də böyük həvəslə gözləyirik. Burada da əzmlə çalışacaq, üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələcəyik. Yaradılan gözəl şəraitə görə bütün mədən yoldaşlarım adından dövlətimizə minnətdarlıq edirəm.

Muxtar respublikamızın təbii sərvəti olan duz üzərindən min illər keçməsinə, bir vaxtlar yad münasibət, etinasızlıq ucbatından sahibsiz, başlı-başına qalmasına rəğmən öz şöhrətini, qiymətini itirməyib. Bir zamanlar sərvəti çapılıb talanaraq ən çox payı özgələrinə çatan haşiyəli dağlarımızda indi müasir, standartlara uyğun şaxta tikilir və köhnə, miskin görünüşlü istehsal yerlərini ən yeni avadanlıqlarla təmin olunacaq müəssisə əvəz edəcək. Bununla da, Naxçıvan duzu qədimdə olduğu kimi, müasir dövrdə də Şərqdən-Qərbə, Avropa ölkələrinə yayılaraq diyarımızın şanına şan qatacaq. Fərq isə ondadır ki, duzumuz indi daha əvvəlki tək kustar üsulla deyil, müasir vasitələrlə keyfiyyətli şəkildə istehsal olunaraq üzərində Naxçıvan duzu əks olunan nəfis paketlərlə Avropa süfrələrinə çıxarılacaq. Gələcəkdə bu əlamətdar hadisə də“İxrac ili”nin ən böyük töhfələrindən biri kimi gözəl xatırlanacaq...

**✍ Nail ƏSGƏROV**

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Əmək müqaviləsi bildirişinin alınması sosial rifahın yüksəldilməsinə xidmət edir

***Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ əmək hüququnun mühüm tərkib hissəsidir. Bu hüququn məzmunu hər bir işçinin həyatına və sağlamlığına mənfi təsir etməyən, zərər vurmayan və təhlükəsizlik tələblərinə cavab verən şəraitdə işləməkdən ibarətdir. Eyni zamanda işəgötürən tərəfindən əməyin təhlükəsizliyinin, işçilərin həyatının, sağlamlığının və əməyinin mühafizəsinin təmin edilməsini nəzərdə tutur. Dövlət bu hüququn həyata keçirilməsini təmin edən müvafiq hüquqi tənzimlənməni yerinə yetirir. Həmçinin bu hüquqların həyata keçirilməsinə nəzarət edən və müasir çağırışlara cavab verən səmərəli mexanizmlər təsis edir.***

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Buna müvafiq olaraq əməyin iqtisadi və sosial ölçüləri vardır. Bu baxımdan əmək hüququ fərdin və onun ailəsinin rifahına və inkişafına, habelə cəmiyyətdə özünü dərk etməsinə təsir edir. Əmək hüququnun bu təyinatları hər kəsin sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçməsi ilə xarakterizə olunur. Əməyin mühafizəsi ilə bağlı normaların işəgötürən tərəfindən yerinə yetirilməsini təmin edən vasitələrdən biri əmək qanunvericiliyində nəzərdə tutulmuş qarşılıqlı maddi məsuliyyətdir. Qeyd edək ki, yalnız əmək münasibətləri olduğu halda işəgötürən və işçi birinin digərinə vurduğu ziyana görə maddi məsuliyyət daşıyır. Əmək münasibətləri yazılı formada əmək müqaviləsi bağlandıqda və əmək müqaviləsi bildirişlərinin "Elektron hökumət" portalı üzərindən qeydiyyata alınmasından sonra yaranır.

İşçi əmək münasibətlərində işəgötürənə nisbətən iqtisadi cəhətdən daha zəif tərəfdir. İşçinin əməkhaqqı, bir qayda olaraq, onun və ailə üzvlərinin yaşaması üçün əsas gəlir mənbəyidir. İşəgötürən isə işçidən fərqli olaraq iqtisadi baxımdan daha güclü tərəf olmaqla, təşkilati-sərəncamverici səlahiyyətlərə malikdir. Qanunvericilikdə işəgötürənin işçiyə münasibətdə tam maddi məsuliyyəti müəyyən edilib. İşçinin və işəgötürənin maddi məsuliyyətinin qarşılıqlı xarakteri əmək münasibətlərindən irəli gəlir. Bu münasibətlər müqavilə xarakterli olduğundan tərəflərdən birinin əmək münasibətlərindən irəli gələn vəzifələrindən hər hansı birinin yerinə yetirilmədiyi halda digər subyektə vurduğu ziyanı ödəmək vəzifəsini nəzərdə tutur. Belə ki, əmək münasibətlərinin əsas prinsiplərindən biri əmək müqaviləsi üzrə öhdəliklərin icrasına hüquqi təminatın yaradılmasıdır. Bu prinsipə müvafiq olaraq əmək müqaviləsi üzrə işçinin həyatını, sağlamlığını, əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaq və əmək funksiyasının yerinə yetirilməsi zamanı əmlakına və səhhətinə dəyən ziyanın ödənilməsini tələb etmək hüquqları vardır.

Müasir dövrdə sosial xidmətlərin elektronlaşdırılması prosesi daha məqsədyönlü şəkildə icra edilir. Belə ki, qazanılan təcrübə sayəsində, sosial mühitin ən aktual sahələri üzrə mövcud xidmətlər elektronlaşdırılaraq vətəndaşların istifadəsinə verilir. Qeyd edək ki, belə mexanizmlərdən biri də əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasıdır. Bu bildirişlərin forması və onun elektron informasiya sisteminə daxil edilməsi və digər məsələləri tənzimləyən qaydalar da təsdiq edilib. Elektron hökumət rəqəmsal ictimai münasibətlərin yaradılması istiqamətində icra olunan işlər çərçivəsində elektron sənəd dövriyyəsini təmin edən mühüm amillərdən biridir və elektron imza kağızla aparılan əməliyyatların elektronlaşdırılmasına xidmət edir. Elektron imza rəsmi sənədlərin kağız üzərində imzalı-möhürlü formalarını eyni hüquqi qüvvəyə malik rəqəmsal sənədlərlə əvəzlənməsinə vasitəçilik edir.

Rəqəmsal ictimai xidmətlər təkcə məmur-vətəndaş münasibətlərinin şəffaflığına deyil, eyni zamanda idarəçilik prinsiplərinin effektivləşdirilməsinə də xidmət edir. Buna əyani nümunə kimi, son zamanlar əmək sahələrində canlanma yaradan əmək müqaviləsi bildirişlərinin "Elektron hökumət" portalı üzərindən qeydiyyata alınmasını göstərmək olar. Məlumdur ki, muxtar respublikada müxtəlif fəaliyyət sahələri üzrə yaradılan şirkətlərin, təşkilatların, iaşə obyektlərinin sayı sürətlə artır. Bu, muxtar respublika iqtisadiyyatının inkişafını əks etdirən göstəricidir. Əmək müqaviləsi işçi-işəgötürən münasibətlərinin təminatı olmaqla, hər iki tərəfin hüquqlarını qoruyur. Qeyd edək ki, əvvəllər əmək müqavilələri kağız üzərində bağlanırdı ki, bu da yeni işəgötürənin məlumatı olmadan başqa müəssisədə əmək müqaviləsinin bağlanmasına səbəb olurdu. Əmək qanunvericiliyinə edilmiş dəyişiklikdən sonra əmək müqaviləsi bildirişi "Elektron hökumət" portalı üzərindən qeydiyyata alınarkən həmin işçinin başqa işə götürənlə əmək müqaviləsinin olub-olmaması barədə işəgötürən elektron portaldan məlumat əldə edir. Bu, öz növbəsində, məşğulluqla bağlı statistikanın çıxarılmasında mühüm əhəmiyyət daşıyır.

Əmək Məcəlləsinə edilmiş dəyişikliklər nəticəsində əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin yaradılmasının hüquqi əsasları müəyyən olunub. Belə ki, edilən dəyişikliyə əsasən əmək müqaviləsi bildirişinin müvafiq elektron informasiya sisteminə daxil olunması işəgötürənin vəzifələrinə aid edilib. Məcəllənin müvafiq maddəsində göstərilir ki, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

Əmək qanunvericiliyinə əsasən əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınır. İşəgötürən elektron imza vasitəsilə əmək müqaviləsinin bildirişini həmin elektron informasiya sisteminə daxil edir. Bildirişin qeydiyyata alınması barədə bir iş günündən gec olmayaraq, sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş işçilərlə ilk dəfə əmək müqaviləsinin bağlanılması elektron informasiya sistemində bir iş günündən gec olmayaraq, işəgötürən və Vergi Xidmətinə elektron qaydada məlumat şəklində göndərilir. Bunun üçün işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası olmalıdır. Məhz elektron imza işəgötürənin işçi ilə imzaladığı və möhür ilə təsdiq etdiyi əmək müqaviləsinin sistemə daxil edilərkən eyni hüquqi qüvvəni saxlamasını təmin edir. Sistemdə işəgötürən tərəfindən təsdiq edilmiş hüquqi qüvvəyə malik əmək müqaviləsi yerləşdirilir. Hər bir işçi onunla bağlı müvafiq əmək müqaviləsi bildirişinin məlumatlarını "Elektron hökumət" portalının mövcud autentifikasiya vasitələrindən istifadə edərək "Əmək müqaviləsi bildirişlərinin məlumatlarının işçilər tərəfindən əldə edilməsi" xidmətini seçərək özü barədə müvafiq məlumatı əldə edə bilər. İşəgötürənə elektron informasiya sistemi vasitəsilə ona aid olan əmək müqaviləsi bildirişlərinin və bu bildirişlərlə bağlı göndərilən məlumatların reyestrinə baxmaq və onları çap etmək imkanı yaradılır. Elektron informasiya sistemi işəgötürənlərin və işçilərin digər işəgötürən və işçilər barədə sistemdən məlumat almasına imkan yaratmır. Qeyd edək ki, elektron imza vasitəsilə sistemə daxil edilən əmək müqaviləsi bildirişi eynilə kağız üzərində olduğu kimi, hər iki tərəfin hüquqlarını müdafiə edərək məsuliyyətdən yayınmanın qarşısını alır.

*Bu sistem işçilərin əmək hüquqlarının müdafiəsinə, habelə işəgötürən-işçi münasibətlərinə nəzarəti artırmaqla bərabər, iqtisadi inkişafın sürətləndirilməsinə və sosial rifahın yüksəldilməsinə müsbət təsir göstərir.*

**Niyaməddin ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Kadrlar bölməsinin rəisi, ədliyyə müşaviri***

*Hikmət xəzinəsindən*

## Rusiya müsəlmanları




Rusiyanın çox milyonlu müsəlman əhalisinin həyatı rus mətbuatında zəif işıqlandırılır və buna görə də rus cəmiyyəti arasında müsəlmanlar haqqında təsəvvür həmişə mübhəm və bəzən də yanlış olub.

Rus mətbuatını izləyən və rus cəmiyyətində dolanan ziyalı müsəlmanların hamısının ümumi fikri belədir.

Bu cür kədərli vəziyyət onunla izah edilir ki, rusiyalı ziyalı müsəlmanlar nəinki müsəlmanların özünəməxsus tarixi taleyi, hüquqları və adətləri ilə, hətta öz ana dilləri ilə tanış deyillər.

Və bu, əlbəttə ki, onların günahı deyil.

Rus məktəblərində doğma müsəlman dilinin tədrisi olduqca pis, çox məhdud qurulub və həm nazirlik proqramları, həm də pedaqoji heyətin şəxsi mülahizələrinə əsasən ona qətiyyən diqqət yetirilmir. Rus məktəblərinə qəbul olunanadək müsəlman məktəblərində doğma dili öyrənmək isə qəbul üçün qoyulan yaş həddi səbəbindən mümkün deyil.

Bax buna görə də rusiyalı ziyalı müsəlmanlar öz xalqı ilə qəzet və jurnal məqalələrindən, özü də pərakəndə, sistemləşdirilməmiş və heç bir ümumi ideya ilə birləşdirilməmiş məqalələrdən öyrənmək məcburiyyətindədirlər.

Rus təhsilinin ən böyük qüsurlarından biri, yeri gəlmişkən, Avropa dillərinin öyrənilməməsi hesab edilir və bu dilləri bilməmək başqalarından çox təhsilli müsəlmanların maraqlarına zərər verir, çünki Avropa dillərində həm sırf elmi araşdırmalar, həm də ədəbiyyat və publisistika sahəsində müsəlmanlara aid çox şey edilib.

Avropa təhsili alan müsəlman öz xalqına münasibətdə tamamilə başqa anlayışları və baxışları olan ziyalı təsiri bağışlayır.

Müsəlman həyatının elmi tədqiqi üçün Avropa alimləri, özlərinin etiraf etdiyi kimi, mənbə olaraq, şübhəsiz ki, müsəlman ədəbiyyatı – həm elmi, həm də tarixi – nümunələrini istifadə ediblər. Müsəlmanlar haqqındakı xarici ədəbiyyat nümunəvi tərcümə əsərlərində müsəlman ədəbiyyatından bəhs edir.

Beləliklə, təhsilli müsəlmanların öz xalqı haqqında biliklərindəki boşluq Avropa dillərinin öyrənilməsi ilə doldurula bilər.

Doğma dili və ədəbiyyatı öyrənmək istəyən bir çox təhsilli müsəlmanlar müsəlman yazı qaydalarının öyrənilməsinin çətinlikləri qarşısında dayanırlar.

"Bu "hədərən-pədərəni" dəyişdirin, bu yazını yumşaq, hamı üçün anlaşılan edin və baxın görün müsəlman həyatı necə tərəqqi əldə edəcək", – onlar deyirlər.

Fikrimizcə, müsəlman yazısı və onun dəyişdirilməsi haqqında məsələ çox mühüm və ciddi məsələdir və onu bir qələmlə həll etmək mümkün deyil, indilik isə bircə müsəlman yazısının çətinliyi ilə özünə bəraət qazandırmaq məntiqli deyil.

Əgər bu "hədərən-pədərəni" avropalı öyrənə bilirsə, həm də mükəmməl öyrənə bilir, onu təhsilli əslən müsəlmanların özləri niyə öyrənə bilmir?

Bu kiçik məqalədə bütün söylədiklərimizin qısa xülasəsi budur:

Rusiyalı müsəlmanların həyatı rus mətbuatında çox cüzi işıqlandırılır.

Rus ədəbiyyatında müsəlman həyatına dair ciddi və mötəbər araşdırmalar, demək olar ki, yoxdur, əgər beləlari varsa da, yalnız xarici ədəbiyyatdadır.

Nə doğma, nə də Avropa dillərini bilməyən rus təhsilli müsəlmanlar öz millətləri, həmdinləri haqqında demək olar ki, bütün rus cəmiyyəti kimi yanlış fikirdədirlər.

Buradan da təhsilli Rusiya müsəlmanları üçün mühüm bir zərurət yaranır ki, dərhal ya ana dilini, ya da xarici dilləri öyrənməyə başlasınlar, ondan ötrü ki, öz xalqlarının həyatı ilə tanış olub ona daha yaxınlaşsınlar və xalqın qabaqcıl mədəni hissəsi kimi faydalı olsunlar.

***Eynəli bəy Sultanov***
***"Zakavkazskaya reç" qəzeti №-47, 1915-ci il***

## Gənclər arasında intellektual oyun



Naxçıvan şəhərində yerləşən Sahil Parkındakı "Sahil" kafedə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Breyn-Rinq" intellektual oyunu keçirilib.

Tədbirdə çıxış edən Gənclər Fondunun əməkdaşı Sübhan Rəhimli, Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov bildiriblər ki, oyunun keçirilməsində əsas məqsəd intellektual oyunların təbliğ olunması, hərəkatın kütləviləşməsinin təmin edilməsi və bu oyunlar üzrə ən güclülərin müəyyən edilməsidir.

8 komanda olmaqla, ümumilikdə, 48 gəncin iştirak etdiyi oyun 4 mərhələdə keçirilib. Əsasnaməyə uyğun olaraq yarımfinal mərhələlərindən etibarən iştirakçılara 5 sual, final mərhələsində isə 2 mərhələ olmaqla, 5 sual ünvanlanıb. Bir rinqdə daha çox xal toplayan komanda digər rinqdə qalib gələn komanda ilə görüşüb.

Oyunun yekun nəticəsinə əsasən "Qasırğa" komandası qalib adını qazanıb.

Sonda qalib komanda təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Məktəblilərin yay tətili səmərəli təşkil olunur



Tədris ilinin yekunlaşması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə məktəblilərin yay tətili istirahətinin təşkili diqqətdə saxlanılır. Məktəbdənkənar tərbiyə müəssisələri tərəfindən internet resurslarından istifadə edərək onlayn qaydada şagirdlərin yay tətili dövründə asudə vaxtlarının səmərəli təşkili, onların istedad və bacarıqlarının üzə çıxarılması, müxtəlif yaradıcılıq işləri ilə motivasiya etmək üçün mütəmadi olaraq yaradıcılıq müsabiqələri, intellektual yarışlar, kitab mütaliələri, videodərslər, onlayn ekskursiyalar təşkil edilir.

Hazırda Uşaq-Gənclər Şahmat Məktəbi, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Turizm-Diyarşünaslıq Mərkəzi, Texniki Yaradıcılıq Mərkəzi, Ekoloji Tərbiyə Mərkəzi, Uşaq-Gənclər İdman Məktəbində onlayn yay dərsləri və yarışlar təşkil edilir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Xələc kənd sakini Əzimov Tahir İsmayıl oğlunun adına olan JN-194 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Xanlıqlar kəndində yaşamış Səfərov İbrahim Əziz oğlunun adına olan 102013000812-10301 reyestr nömrəli texniki pasport və çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 508